# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI

**2025-ci ildə auditorların ixtisasartırma kursunun**

**T Ə D R İ S   P R O Q R A M I**

***(Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2025-ci il 13 iyun tarixli 377/5 nömrəli qərarı ilə təsdiq edilmişdir)***

**Tərtib etdi:**

Kadr hazırlığı idarəsinin rəisi E.Y.Behbudova

**Rəyçi:**

Auditorların ixtisasartırma və
peşə təhsili üzrə Komitənin sədri İ.S.Süleyman

**Bakı şəhəri - 2025**

**MÜNDƏRİCAT:**

Giriş...................... ..........................................................................................................3
Tədris proqramının mövzuları..............................................................................................4
Tədrisin davamiyyət müddəti...............................................................................................5
İstifadə olunmuş ədəbiyyatın siyahısı...................................................................................6

# GİRİŞ

2025-ci ildə auditorların ixtisasartırma kursunun tədris proqramı (bundan sonra "Proqram" adlandırılacaq) Azərbaycan Respublikasının Auditorlar Palatasının İş Planının 2025-ci il üzrə 7.1-ci "2025-ci il üzrə auditorların ixtisasartırma kurslarının tədris proqramının IFAC və ACCA-ın beynəlxalq təhsil standartlarının tələbləri nəzərə aınmaqla hazırlanması və qrafiki barədə" bəndinin icrasını təmin etmək məqsədilə hazırlanmşdır və Azərbaycan Respublikası Auditorlar Palatasında təşkil olunan auditorların ixtisasartırma kursunun mövzularını, mühazirələrin və praktiki məşğələlərin davamiyyət müddətlərini müəyyən edir.

Proqram "Auditor xidməti haqqında" Azərbaycan Respublikası Qanununa, Azərbaycan Respublikası Milli Məclisinin 19 sentyabr 1995-ci il tarixli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında Əsasnamə"yə, digər qanunvericilik aktlarına, Beynəlxalq Audit Standartlarına (ISA), ESG prinsiplərinə, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə mübarizə (ƏL/TMM) və hədəfli maliyyə sanksiyaları sahəsində qanunvericiliyin tələblərinə və korporativ idarəetmə standartlarına əsaslanır.

Müasir dövrdə iqtisadiyyatın, texnologiyanın və biznes mühitinin sürətli inkişafı auditor xidməti göstərən şəxslər üçün yeni çağırışlar və tələblər yaradır. Auditin aparılmasının ənənəvi metodları artıq müasir biznesin mürəkkəbliyini və risklərini tam şəkildə əhatə etmir. Süni intellekt (AI), avtomatlaşdırma, blokçeyn texnologiyası, ESG standartları və kibertəhlükəsizlik kimi amillər auditorların daha geniş biliklərə malik olmasını və yeni metodlarla işləməsini tələb edir.

Son illərdə rəqəmsal transformasiya, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizə, vergilərin optimallaşdırılması və dayanıqlı inkişaf kimi məsələlər auditor xidməti göstərən şəxslərin diqqət mərkəzinə çevrilmişdir. Proqram bu sahələrdə baş verən dəyişiklikləri və yenilikləri izləmək, auditorlar üçün zəruri bacarıqlar və qabiliyyətlər formalaşdırmaq məqsədini daşıyır.

Proqram əsasında keçiriləcək auditorların ixtisasartırma kursu auditorların yalnız ənənəvi maliyyə auditi sahəsində bilikləri deyil, həm də müasir risk əsaslı auditn aparılmasının metodlarını mənimsəmələrini nəzərdə tutur.

Proqramın auditorların ixtisasartırma kursunun iştirakçıları tərəfindən mənimsənilməsi onların müasir audit yanaşmalarını daha dərindən qavramalarına, beynəlxalq standartlara uyğun biliklərini və peşəkar bacarıqlarını inkişaf etdirmələrinə və gələcəyin çağırışlarına hazır olmasına zəmin yaradacağına ümid bəsləyirik.

*Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2025-ci il 13 iyun tarixli 377/5 nömrəli qərarı ilə təsdiq edilmişdir*

## 2025-ci ildə auditorların ixtisasartırma kursunun
## TƏDRİS PROQRAMININ MÖVZULARI

Tədrisin davamiyyət müddəti, cəmi: 40 saat
o cümlədən:
- Mühazirə: 20 saat
- Praktiki məşğələ: 18 saat
- Yekun qiymətləndirmə: 2 saat

Mövzu 1. Süni İntellektin və avtomatlaşdırmanın auditə təsiri:
- Süni intellektin və avtomatlaşdırmanın auditə təsiri;
- Rəqəmsal transformasiya və innovativ audit yanaşmaları;
- Audit proqram təminatları və Süni İntellektin istifadəsi.

Mövzu 2. Kibertəhlükəsizlik Auditi və Risklərin Qiymətləndirilməsi
- Kibertəhlükəsizlik və onun maliyyə hesabatlarına təsiri;
- Kiberhücumların və məlumat oğurluğunun qarşısının alınması;
- IT sistemlərinin və daxili nəzarət mexanizmlərinin auditi.

Mövzu 3. Davamlılıq (Sustainability) Auditi və ESG Uyğunluğu
- ESG auditi və hesabatların hazırlanması;
- Davamlılıq və korporativ sosial məsuliyyət üzrə auditin aparılması metodları;
- Yaşıl maliyyə və iqlim dəyişikliyinin biznesə təsiri

Mövzu 4. Süni İntellektlə Dələduzluq və Rəqəmsal Dələduzluğun Auditi
- Blokçeyn və kriptovalyuta əməliyyatlarının auditi;
- Süni İntellektlə dələduzluq hallarının və dələduzluq risklərinin aşkarlanması
- Elektron ödəniş sistemlərinin auditi və təhlükəsizlik nəzarətləri

Mövzu 5. Beynəlxalq Vergi Auditi və Transfer Qiymətqoyması
- Vergidən yayınma sxemləri və onların auditi;
- Transfer qiymətqoymasının auditdə rolu;
- Beynəlxalq vergi hüququ və risklər.

Mövzu 6. Şirkət Dəyişikliklərinin və Birləşmələr-Satınalmaların (M&A) auditi:
- Birləşmə və satınalmalar zamanı risklərin auditi
- Dəqiq Qiymətləndirmə (Due Diligence) prosesləri
- Maliyyə hesabatlarının yenidən strukturlaşdırılması və auditi

Mövzu 7. Daxili Audit və Korrupsiya Risklərinin Aşkarlanması:
- Anti-korrupsiya və etik nəzarət mexanizmləri;
- İdarəetmə strukturlarında şəffaflıq və hesabatlılıq
- Daxili nəzarət sistemlərinin təkmilləşdirilməsi

Mövzu 8. Dayanıqlı Maliyyələşmə və Yaşıl Audit
- Şirkətlərin ekoloji məsuliyyətinin auditi;
- Yaşıl kreditlərin və dayanıqlı investisiyaların auditi;
- ESG investisiyalar və risklərin idarə edilməsində onların rolu

Mövzu 9. Böhran Dövründə Audit və Strateji Risklərin İdarə Edilməsi
- Maliyyə böhranlarının təsiri və auditorun rolu;
- Şirkətlərin iflas riski və onun aşkarlanması;
- Risk əsaslı audit metodlarının inkişaf etdirilməsi.

Mövzu 10. Praktiki məşğələlər
- Praktiki tapşırıqlar
- Real audit hadisələrinin təhlili;
- Audit hesabatlarının hazırlanması;
- İnteraktiv müzakirələr

Mövzu 11. Keyfiyyətə Nəzarət Komitəsinin monitorinqləri əsasında ən çox pozulan standartlar (BAS)

Mövzu 12. Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının "Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsi" (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə)

Mövzu 13. Qanunvericiliyə edilmiş dəyişikliklər

Mövzu 14. Beynəlxalq Audit Standartlarına edilmiş ən son dəyişikliklər.

Yekun qiymətləndirmə. Kurs ərzində öyrənilmiş biliklərin test və praktiki tapşırıqlarla yoxlanılması.

## Mövzular üzrə tədrisin davamiyyət müddəti:

| Sıra №-si | Mövzunun adı | Cəmi (saat) | o cümlədən: | | |
|---|---|---|---|---|---|
| | | | Mühazirə (saat) | Praktiki məşğələ (saat) | Qiymətləndirmə (saat) |
| 1. | Süni intellektin və avtomatlaşdırmanın auditə təsiri | 3 | 2 | 1 | - |
| 2. | Kibertəhlükəsizlik auditi və risklərin qiymətləndirilməsi | 3 | 2 | 1 | - |
| 3. | Davamlılıq (Sustainability) auditi və ESG Uyğunluğu | 3 | 2 | 1 | - |
| 4. | Süni intellektlə dələduzluq və rəqəmsal dələduzluğun auditi | 3 | 2 | 1 | - |
| 5. | Beynəlxalq vergi auditi və transfer qiymətqoyması | 3 | 2 | 1 | - |
| 6. | Şirkət dəyişikliklərinin və birləşmələr-satınalmalarının (M&A) auditi | 2 | 1 | 1 | - |
| 7. | Daxili audit və korrupsiya risklərinin aşkarlanması | 2 | 1 | 1 | - |
| 8. | Dayanıqlı maliyyələşmə və Yaşıl Audit | 2 | 1 | 1 | - |
| 9. | Maliyyə böhranı dövründə audit və strateji risklərin idarə edilməsi | 2 | 1 | 1 | - |
| 10. | Praktiki məşğələlər | 4 | - | 4 | - |
| 11. | Keyfiyyətə nəzarət komitəsinin monitorinqləri əsasında ən çox pozulan standartlar (BAS) | 4 | 2 | 2 | - |
| 12. | Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının "Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsi" (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) | 3 | 2 | 1 | - |
| 13. | Qanunvericiliyə edilmiş son dəyişikliklər | 2 | 2 | - | - |
| 14. | Beynəlxalq Audit Standartlarına edilmiş son dəyişikliklər | 2 | 2 | - | - |
| | Yekun qiymətləndirmə: kurs ərzində öyrənilmiş biliklərin test və praktiki tapşırıqlarla yoxlanılması | 2 | - | - | 2 |
| **Yekunu:** | | **40** | **22** | **16** | **2** |

## İstifadə olunmuş ədəbiyyatın siyahısı:


1. “Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanunu
2. Süni intellektin auditorların işinə təsiri. Deloitte Research Report https://www2.deloitte.com/az/az.html
3. Cybersecurity for Executives (Kibertəhlükəsizlik strategiyaları və IT təhlükəsizliyi) Qreqori J. Touhill, C. Cozef Tuhill https://unidel.edu.ng/focelibrary/books/cybersecurity-for-executives-a-practical-guide.9781118888148.77295.pdf
4. NİST. Cybersecurity framework (National Institute of Standards and Technology) NİST Kibertəhlükəsizlik Çərçivəsi (Milli Standartlar və Texnologiya İnstitutu) Kibertəhlükəsizlik üçün beynəlxalq audit standartları https://www.nist.gov/cyberframework
5. IT Auditing Using Controls to Protect Information Assets, 2-nd Edition (IT riskləri və daxili nəzarət sistemlərinin auditi, ISACA)
6. ESG və davamlılıq hesabatlarının hazırlanması https://www.globalreporting.org/
7. Sustainability Accounting and Accountability (Dayanıqlı inkişaf üzrə mühasibatlq və hesabatlılıq), Jan Bebbington, Jeffrey Unerman, Brendan O’Dwyer https://www.google.az/books/edition/Sustainability_Accounting_and_Accountabi/m7XAAwAAQBAJ?hl=az&gbpv=1&dq=9.+Sustainability+Accounting+and+Accountability+%E2%80%93+Jeffrey+Unerman,+Brendan+O%E2%80%99Dwyer&pg=PR4&printsec=frontcover
8. ESG hesabatlarının maliyyə hesabatlarına təsiri https://www.fsb-tcfd.org/
9. Elektron ödəniş sistemlərində dələduzluğun aşkarlanması www.pwc.com
10. Beynəlxalq transfer qiymətqoyması qaydaları https://www.oecd.org/
11. Maliyyə hesabatlarının yenidən strukturlaşdırılması.PwC Report www.pwc.com
12. Daxili nəzarət və etik nəzarət mexanizmləri. COSO https://www.coso.org/
13. ESG risklərinin idarə olunması https://www.esma.europa.eu/
14. Risk əsaslı audit metodlarının inkişafı www.deloitte.com
15. Süni intellektin maliyyə hesabatlığı və audit sahəsində tətbiqi, onun effektivliyi və keyfiyyətə təsiri. KPMG www.kpmg.az
16. Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsi (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə), 2024-cü il nəşri https://audit.gov.az/Upload/Files/2019/2023_IESBA_Handbook_AZ_TAM_VERS%C4%B0YA.pdf
17. Yenilənmiş Beynəlxalq Audit Standartları
https://audit.gov.az/Upload/Files/2019/bas_220_2022.pdf
https://audit.gov.az/Upload/Files/2019/bas_540_2020.pdf
https://audit.gov.az/Upload/Files/2019/bas_250.pdf
https://audit.gov.az/uploads/BAS_700.pdf
https://audit.gov.az/uploads/BAS_701.pdf
https://audit.gov.az/uploads/BAS_705.pdf
https://audit.gov.az/uploads/BAS_706.pdf
https://audit.gov.az/Upload/Files/2019/ISRS-4400-Duzelis_edilmis.pdf
https://audit.gov.az/Upload/Files/2019/600_sayl%C4%B1_Beyn%C9%99lxalq_audit_standart%C4%B1.pdf